# Ulu öndərin Naxçıvandan başlanan xilaskarlıq marafonu

**Zəmanəmizin görkəmli siyasətçisi Heydər Əliyevin 1993-cü ilin yayında ikinci dəfə hakimiyyətə qayıdışı təkcə Azərbaycanın yox, eləcə də Cənubi Qafqazın və bölgənin taleyində dönüş nöqtəsi oldu. Müstəqilliyin ilk illərində ciddi hərbi-siyasi böhranla üzləşmiş Azərbaycanın daxili və xarici düşmənləri bu qayıdışa bütün vasitələrlə mane olmağa çalışmışdılar. Lakin fəlakət anında son və qəti sözü xalq dedi. Torpaqlarını hissə-hissə itirən Azərbaycan suverenliyini də əldən verməli olanda ümummilli lider Heydər Əliyev xalqın arzu, təklif və tələbi ilə müstəqil ölkənin ali idarəçiliyini qəbul etdi.**

Dünya miqyasında tanınmış siyasətçi və dövlət xadimi olan ulu öndər bu qayıdışı tarixi zərurət kimi qəbul edib xilaskarlıq missiyasını müstəsna bir qətiyyətlə gerçəkləşdirməyə başladı: “Doğma Vətən torpağına yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi heç kəs bu hüququmdan məhrum edə bilməz”. Bu məramla Moskvadan Bakıya dönüb ölkə rəhbərliyinin biganəliyini və xəyanətkarlığını görən ümummilli lider doğulduğu diyara – blokada şəraitində və ciddi işğal təhlükəsi altında yaşayan Naxçıvana getməli, müqəddəs mübarizəsinə ən çətin nöqtədən başlamalı oldu.



## Doğma yurda dönüş

O dövrün siyasi xronikasına diqqət edəndə də görünür ki, siyasət nəhəngi, amal və əməl dahisi Heydər Əliyevin 1990-cı ilin yayında Naxçıvana dönüşü, mərkəzi meydanda on minlərlə adamın bitib-tükənməyən sevgi-sayğısı ilə qarşılanması böyük siyasətçinin dalana dirənmiş ictimai-siyasi fəaliyyətinin yeni dövrünün başlanmasının müjdəsi oldu. Heydər Əliyevin həmin ilin 22 iyulunda Azərbaycana – Naxçıvana qayıdışı tarixi bir zərurət idi. Ölkə mediasının, xüsusən də hakimiyyətə bağlı olan mətbuat orqanlarının bu tarixi hadisəyə soyuq və susqun münasibətinin səbəbləri o dövrdəki hakimiyyətin qadağaları ilə əlaqədar idi.

Lakin tarixi həqiqətləri inkar etmək və gerçək tələbatı gizlətmək də mümkün olmamışdı. Bir ilk olaraq, bütün qadağalara baxmayaraq Naxçıvanda nəşr edilən qeyri-formal “Varlıq” qəzeti iyulun 25-də xalq hərəkatı fəalı Əli Şamilin, ondan bir gün sonra isə muxtar respublikanın rəsmi mətbu orqanı “Şərq qapısı” qəzeti Möhsün Möhsünovun Heydər Əliyevlə müsahibələrini ictimaiyyətə təqdim etmişdi. Bunlar Heydər Əliyevin Azərbaycana – Naxçıvana tarixi dönüşündən sonra mətbuatın dərc etdiyi ilk müsahibələr idi.

Yeri gəlmişkən, qeyd edək ki, həmin dövrdə ulu öndər Heydər Əliyevin Vətənə dönüşünü alqışlayan və dəstəkləyən (mətbuat tədqiqatçıları tərəfindən bu gün yetərincə öyrənilməyən) “Varlıq” nəşri 20 Yanvar hadisələrindən sonra Heydər Əliyevin Moskvada Azərbaycanın daimi nümayəndəliyindəki tarixi çıxışının tam mətnini ilk dəfə çap edən qəzet olmuşdur. “Varlığ”ın 1-ci sayında işıq üzü görmüş bu çıxışın mətni Naxçıvanda gizli yolla 20 min tirajla çap olunub bütün Azərbaycana yayılmışdı.

Naxçıvana dönüş Heydər Əliyevin siyasi fəaliyyətə yenidən qayıdışı olduğu kimi, həm də Azərbaycanın xilas yolunun başlanğıcına çevrildi. Başqa sözlə desək, böyük siyasətçiyə xalqın azadlıq mübarizəsinə qoşulmaqda iradə və güc verən Naxçıvan bununla özünü də yox olmaq təhlükəsindən xilas etdi. Tədqiqatçıların da yazdığı kimi: “Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi”. Azərbaycana rəhbərliyinin birinci dövründə Vətəninin hərtərəfli inkişafında misilsiz xidmətlər göstərmiş, ideyaları, zəkası, biliyi, idarəçilik təcrübəsi ilə bugünümüzə, sabahımıza bələdçilik edən ümummilli lider Heydər Əliyevin siyasi bioqrafiyasına 1990–1993-cü illər həyat və fəaliyyətinin Naxçıvan dövrü kimi daxil oldu.

Heydər Əliyevin özü də bu illərin mahiyyətini ayrıca vurğulayaraq muxtar respublika sakinləri ilə görüşlərinin birində demişdi: “Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur”.

## Xalqın lider sevgisi...

Dövrün rəsmi nəşrlərində – “Kommunist”, “Bakinski raboçiy”, “Sovet kəndi”, “Vışka”, “Azərbaycan gəncləri”, “Molodyoj Azerbaydjana” və digər qəzetlərdə Heydər Əliyevin Naxçıvana dönüşünün motivləri böhtan dolu çalarlarla əksini tapsa da, yeni gizli nəşrlər məsələdə obyektiv mövqedə dayandılar. “Varlıq”, “Aydınlıq”, “Azadlıq”, “İki sahil”, “Ədalət”, “Yurddaş”, “Səs”, “Mədəniyyət”, “Respublika”, “Vətən səsi”,“Naxçıvan” kimi qəzetlərin səhifələrində Naxçıvanla bağlı dərc edilən xəbər və materiallarda xalqın azadlıq səsi eşidilməkdə, böyük siyasətçiyə məhəbbət və sevgilər duyulmaqda idi.

Həmin dövrdə Naxçıvanla bağlı xəbərlərə qoyulan qadağalar qorxu və təpki hissləri aşılsa da, bu qəzetlərin məsul işçiləri, eyni zamanda, o zaman Azərbaycan jurnalistikasının fədakar nümayəndələri olan Mirzə Əsgərov (“Azərinform”un müxbiri), Əhməd İsayev (“Respublika” qəzetinin baş redaktoru), Əmir Mustafayev (“Respublika” qəzetinin baş redaktor müavini, sonralar “Azərbaycan” qəzetinin baş redaktoru), Vüqar Rəhimzadə (“İki sahil” qəzetinin baş redaktoru), Əli Şamil (“Şərq qapısı” və “Varlıq” qəzetlərinin əməkdaşı), Şahmar Əkbərzadə (“Mədəniyyət” qəzetinin baş redaktoru), Teymur Əhmədov (“Vətən səsi” qəzetinin baş redaktoru, sonralar “Respublika” qəzetinin baş redaktoru), Möhsün Möhsünov (“Şərq qapısı” qəzetinin əməkdaşı), Mais Səfərli (“Yurddaş” qəzetinin baş redaktoru), Xeyrəddin Qoca (“Açıq söz” qəzetinin redaktor müavini) və başqaları Naxçıvan həqiqətlərinə və Heydər Əliyevin fəaliyyəti ilə bağlı xəbərlərə müntəzəm yer ayırmalarını özlərinin vətəndaşlıq işi və jurnalist borcu bilmişdilər.

Maraqlıdır ki, keçmiş ittifaqın mərkəzi mətbuatında da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyətə qayıdışını əks etdirən media vasitələri olmuşdur. “Pravda”, “İzvestiya”, “Trud” kimi mərkəzi mətbuat orqanlarının Naxçıvan reallıqlarına səhifələrində yer ayırması həm də Heydər Əliyev dühasının qüdrətindən irəli gəlirdi. Xatırladaq ki, Heydər Əliyevin hələ Naxçıvana dönüşündən xeyli əvvəl “Teatralnaya jizn” jurnalı üçün Andrey Karaulovla müsahibəsində ulu öndərin o zamankı gerçəklərə münasibəti müəyyən qədər ifadəsini tapmışdı.

Heydər Əliyevin 1990-cı ilin 20 Yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək ictimaiyyət qarşısında cəsarətli və özünəməxsus çıxışı, faciəyə verdiyi tarixi qiymət, onun günahkarlarının cəzalandırılması tələbi xalqda gələcəyə nikbinlik, ədalətə inam aşılamaqla yanaşı, ulu öndərin həyatına ciddi təhlükə yaratmışdı. Sov.İKP MK-nın baş təbliğat maşını olan “Pravda” qəzetində dərc olunmuş “Əliyevçilik, yaxud xoş əyyamların xiffəti” məqaləsi, əslində, Heydər Əliyevə qarşı siyasi təqiblərin başlanmasından xəbər verirdi. Bundan az sonra “Kommunist” qəzetində “Bu da tayfa oyunudur?” məqaləsinin yer almasının məqsədi də Heydər Əliyevin Azərbaycana gələn yollarının bağlanması idi.

Nə qədər fitnə-fəsad və təcavüz cəhdləri törədilsə belə, ulu öndərin haqq yolunu bağlamaq mümkün olmadı. Onun Bakıda yaşamasına imkan verilməsə də, doğma Naxçıvan öz xilaskarını qəbul etməklə, Heydər Əliyevi yenidən siyasət meydanında yüksəltdi. Onda Naxçıvan son dərəcə çətin və olduqca ağır dövrünü yaşayırdı. İqtisadiyyat tamamilə dağıdılmış, əhalinin maddi durumu aşağı düşmüş, ərzaq qıtlığı yaranmışdı.

Ermənilərin hücumlarının bölgədəki ağır situasiyanı daha da gərginləşdirdiyi bir zamanda, Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibəti də muxtar respublikanı son dərəcə acınacaqlı bir durumla üzləşdirmişdi. Mətbuatın da yazdığı kimi, belə bir vaxtda xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrilmiş, hamı onun timsalında böyük xilaskarını tapmışdı.

Beləliklə, Heydər Əliyevin Naxçıvana qayıdışı həm də Azərbaycanın tarixində yeni bir eranın başlanğıcı olmuşdu. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə qeyd edildiyi kimi, Moskvadan Naxçıvana dönüş, o dövrün bəzi qəzetlərinin yazdığı kimi, əyalətə yox, Vətənə gəliş idi. Bu, həm də böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi.

Bu qayıdış sonralar da siyasi dairələrin və siyasətçilərin, eləcə də mətbuatın ən çox bəhs etdiyi mövzulardan oldu: Heydər Əliyev meydana – xalqın görüşünə gəldi. Bu böyük şəxsiyyətlə görüşə gələnlərin, onu uzaqdan müşahidə edənlərin şadlığını təsvir etmək çətindir. Heydər Əliyevin sevinc dolu alqışlar altında etdiyi qısa çıxış xalqına sonsuz məhəbbətlə dolu böyük ürəyin səsi idi. Bəzi mənbələrdə bu görüşdə 20, 30 min insanın iştirak etdiyi vurğulanır. Tarixi qayıdaşa şahidlik edən “Varlıq” qəzeti yazırdı: “Naxçıvanda Azadlıq meydanına gələrkən Heydər Əliyev başı üzərində ucaldılan üçrəngli, ay-ulduzlu bayrağı görüb onu öpmüşdür. Görüşdə 50 min nəfərə yaxın kişi, qadın, məktəbli və hətta kiçik yaşlı uşaqlar iştirak etmişdir”.

## “Heydər Əliyev qadağası”nın iflası

Göründüyü kimi, ümummilli liderin Naxçıvanda siyasi fəaliyyətə başlaması, bundan sonra baş verən ciddi hadisələr ölkədə və xaricdə mətbuatın daimi mövzusuna çevrildi. “Ulduz” jurnalının (6-cı say), ardınca “Respublika” (Azər Abdulla “Mən adamlara inanmışam”) və Tbilisidə çıxan “Sovet Gürcüstanı” qəzetlərinin ulu öndərdən müsahibə alıb dərc etmələri yaxın-uzaq medianın Heydər Əliyev fenomeninə ayırdığı diqqətin, verdiyi dəyərin ifadəsi idi.

“Xalq qəzeti”nin müxbiri mərhum Əlipənah Bayramovun görkəmli alim Tələt Qayıbovla müsahibəsində də bu diqqət əksini tapmışdı: “1920-ci il aprel çevrilişindən sonra mən Azərbaycanın tarixində iki böyük şəxsiyyət tanıyıram: Sovet İttifaqının möhkəmləndiyi dövrdə hakimiyyətə gələn Mircəfər Bağırov və bu dövlətin süqutu ərəfəsində hakimiyyətdə olan Heydər Əliyev. Yenə də siyasi mədəniyyətimiz çatmadığı üçün özümüz tarixi şəxsiyyətlərimizi məhv edirik”.

Bu dövrdə Azərbaycanın siyasi hakimiyyətinin qadağalarına baxmayaraq, bir sıra rayonlarda dərc edilən yerli qəzetlərin müxbirlərinin Heydər Əliyevlə görüşə və ondan müsahibələr almağa can atmaları da xalqın ona məhəbbətindən doğurdu. Həmin dövrdə rəsmi mətbuatda Heydər Əliyev haqqında yazmaq, onun fikirlərini xalqa çatdırmaq yasaq edilmişdi. Azərbaycanın o zamankı korafəhm və vassal düşüncəli rəhbərliyi xalqın ümummilli liderini informasiya blokadasına almaqla, təkcə ona düşmən münasibət bəsləyən Moskvanın tapşırığını yerinə yetirmir, həm də özlərinin müstəqil olmayan, xalqazidd siyasətləri ilə sonu yaxınlaşan hakimiyyətlərini qorumağa cəhd edirdilər. Bununla belə, vətənsevər, cəsarətli Azərbaycan jurnalistləri görkəmli siyasətçinin fikirlərini xalqa çatdırmaq üçün əllərindən gələni əsirgəmir, qoyulmuş qadağalara boyun əymir, hər cür məhrumiyyətlərə dözürdülər.

Belələrindən biri də həmin vaxtlar Saatlıda çıxan “Dönüş” qəzetinin şöbə müdiri olmuş Fəxrəddin Ağamirzəyevdir. Peşəkar jurnalist və qeyrətli qələm sahibi olan Fəxrəddin Ağamirzəyevin Naxçıvanda Heydər Əliyevlə görüşməsi və 1990-cı ilin avqust ayında “Dönüş” qəzetinin 3 sayında ulu öndərlə aktual və əhatəli müsahibəsini dərc etdirməsi ziyalı fədakarlığı nümunəsi olmuşdu. Bu tarixi müsahibədə Fəxrəddin Ağamirzəyevin “Respublikaya qayıdandan sonra jurnalistlərlə çoxmu görüşünüz olub? Daha çox hansı jurnalistləri maraqlandırmısınız?” sualına ulu öndər belə cavab vermişdir: “Naxçıvana qayıdandan daha çox, əsasən Naxçıvan Muxtar Respublikasının jurnalistləri ilə goruşum olub. Təəssuf ki, Bakıdan olan jurnalistlərin hec birisi mənim yanıma gəlməyib. Bakıdan bir-iki azad qəzetlərin jurnalistləri gəlib mənimlə görüşüblər. Ancaq rəsmi mətbuat orqanlarının jurnalistləri mənim yanıma gəlmirlər. Mərkəzi televiziyanın “Vremya” (“Zaman”) xəbərlər redaksiyasının Azərbaycan Respublikası üzrə müxbiri Mais Məmmədov mənə zəng etdi və çatdırdı ki, Moskvadan ona göstəriş var ki, mənimlə görüşsün, mərkəzi televiziyaya material hazırlasın. Mən də razılığımı verdim ki, gəlsin. O dedi ki, onda sabah mən gəlirəm Naxçıvana, sizinlə görüşməyə. Ancaq ondan sonra o gəlmədi. Mənə belə gəlir ki, burada nəsə bir səbəb var. Çünki, bu onun özünün təşəbbüsü deyildi. Bu, mərkəzi televiziyanın təşəbbüsü idi. Gəlmədi gəlməsin, eybi yoxdur. Bundan başqa, Litvadan, Estoniyadan mənim yanımda jurnalistlər olmuşlar. Sonra Moskvadan bir-iki jurnalist telefon vasitəsilə məndən müsahibə almışdır”.

Müəllif o zaman Heydər Əliyevlə görüşün çətinliklərindən söhbət açaraq yazırdı: “Heydər Əliyevlə görüşüb müsahibə götürmək fikrinə düşəndə tam aydınlığı ilə dərk edirdim ki, bundan sonra məni nələr gözləyir. Ən azı, bunu həmin dövrdə mərhum Əjdər Xanbabayevin başına gətirilənlərdən bilirdim. Həm də müsahibə alıb dərc etdirmək fikrim yaranandan uca bir zirvəyə doğru yön aldığımı dərk edirdim”. Fəxrəddin Ağamirzəyev böyük naşir Əjdər Xanbabayevin taleyini yaşamasa da, “Dönüş” qəzetnin 1990-cı il 100, 101 və 102-ci saylarında “Heydər Əliyevlə müsahibə”ni çap etdirəndən dərhal sonra ciddi təqibə məruz qaldı, ən yaxşı halda, “öz ərizəsilə” işdən azad edildi. Bundan sonra jurnalistin özünə və ailə üzvlərinə qarşı təhdidlər başlandı, fəaliyyətdən uzaqlaşdırıldı, işsiz qaldı.

Uzun illərdən sonra bu müsahibə “Dönüşdən Qurtuluşa” adlı kitabda yenidən çap olundu. Nəşrin ön sözündə, kitabın redaktoru, Əməkdar jurnalist Tahir Aydınoğlu müxbirin fəaliyyətini belə qiymətləndirir: “Heydər Əliyev şəxsiyyətinə həmişə sonsuz sevgi bəsləyən Ağamirzəyevlər ailəsinin “Dönüş” qəzetində şöbə müdiri işləyən 30 yaşlı oğlu, jurnalist Fəxrəddin Ağamirzəyev Heydər Əliyevə qarşı yönəlmiş şiddətli böhtan kampanyasına dözməyərək, qarşıda onu nələr gözlədiyinin fərqinə varmayaraq çox çətinliklə blokadada olan Naxçıvana getmiş, ikiqat blokadada yaşayan əfsanəvi soydaşımız Heydər Əliyevlə şəxsən görüşmüş, onunla müsahibə aparmışdı. Jurnalist aldığı geniş müsahibədə Heydər Əliyevlə bağlı həqiqətləri ortaya qoymuş, o günlərin ən vacib, bu gün də aktuallığını itirməmiş suallarına tarixi cavablar almışdı“.

## Azadlıq savaşının başlanğıcı

Naxçıvana gəlişindən az bir müddət sonra Heydər Əliyev siyasi fəaliyyətə başladı, o, özü siyasətdən tam uzaq olmaq arzusunu dəfələrlə bəyan etsə belə, şəxsi dincliyini bir kənara qoyub xalqın milli iradəsinə tabe oldu – çətin dövrdə xalqın dərdinə şərik çıxdı, vətəndaşlıq borcunu yerinə yetirdi, azadlıq uğrunda mübarizəyə qoşuldu. Ulu öndər Heydər Əliyevin Naxçıvana dönüşü muxtar vilayətin siyasi həyatına ciddi bir canlanma gətirdi. Naxçıvanın diqqət mərkəzində olması ilə Heydər Əliyevin fəaliyyəti də informasiya məkanında, çətinliklə olsa da, özünə yer tapmağa başladı.

Naxçıvana qayıdışdan iki ay sonra – 30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasının əhalisi yekdilliklə ulu öndəri Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçdi. 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başladı. Bu sessiyada təkcə Naxçıvan deyil, bütün Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olundu. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, milli istiqlal rəmzi olan üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərarların qəbulu cəmiyyət üçün sevindirici olsa da, respublika və ittifaq rəhbərliyi üçün gözlənilməz idi.

Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri seçilməsi muxtar respublikada mürəkkəb vəziyyətin nəzarətə alınıb idarə olunmasını təmin etdi. Ermənistanın işğal hədəfində olan qədim diyarın bu təhlükədən xilasının ən başlıca səbəbi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi xalqı öz ətrafında birləşdirməsi, region dövlətləri ilə əlaqələri möhkəmləndirərək böyük güclərin təcavüz planlarını məharətlə pozması, düşmən qəsdlərinə qarşı müqavimət hərəkatına bacarıqla rəhbərlik etməsi idi.

***Namiq ƏHMƏDOV,***
***“Xalq qəzeti”***